


# Paralimpiyaçılarımızın hesabında 11-ci qızıl medal

## Vəli İsrafilov növbəti çempionumuz oldu

Tokioya yüksək əhvali-ruhiyyə ilə yollanan Azərbaycan paralimpiyaçıları hər gün yeni uğurları ilə azarkeşlərini sevindirirlər. Onlar mübarizəyə qoşulduqları bütün yarış növlərində yüksək ustalıq nümayiş etdirirlər.












Yarışların növbəti günü Azərbaycan komandasının hesabındakı medal sayı 16-ya çatdı. Onlardan 11-i qızıl, 1-i gümüş, 4-ü isə bürüncdür. Xatırladaq ki, paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medala sahib olmuşdular. Üzgüçülük yarışında isə Raman Saleh iki dəfə Paralimpiya çempionu adını qazanmışdır. Nizəatma yarışında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri də qızıl medalçılar sırasına qoşulmuşdur. Onun uğurunu Elvin Astanov nüvəatma yarışında təkrarlamışdır. Uzunluğa tullanmada Səid Nəcəfzadə və pauerliftinqdə Pərvin Məmmədov isə fəxri kürsünün üçüncü pilləsinə qalxmışlar.

Dünən Azərbaycan yığmasına növbəti qızıl medalı üzgüçü Vəli İsrafilov qazandırdı. O, arxası üstə 100 m məsafəyə üzməkdə fərqlənərək 1:04,86 nəticə ilə birinci oldu. Bununla o, həm də Paralimpiadanın rekordunu təzələdi.

Azərbaycan.- 2021.- 2 sentyabr.- S.7.